rər ki, İran tarixi tərəfindən ənənəvi olaraq İran ə
edilən bu bölgə üzərində nəzarətini saxlasın, eyni
nın öz daxilindəki təhlükəli separatçı meyllərin c
Ümumən İran, ola bilsin ki, münaqişənin saxlanm
marağı olan xarici tərəfdir, baxmayaraq ki daim
iddia edir. İranda prezident seçkilərindən sonra
möhkəmlənməsi, xüsusən Qərblə «atom qarşıdurı
dalğasının güclənməsi kontekstində, bölgədə ABŞ
rının yerləşdirilməsi ilə bağlı Cənubi Qafqazda
ziyyətlərinə yeni intriqa gətirə bilər.

Bu əsnada Qərb birliyi regionda siyasi və iq
inamla artırır. Regionda geosiyasi irəliləyişlərin
artıq görünür. Amerika diplomatiyası hələ 11 sen
il hadisələrinə qədər Cənubi Qafqaz ölkələrini öz
sı elan etmiş, həmin hadisələrdən sonra isə regic
nüfuz etməyə başlamışdır. Bununla belə, hələlik
zəif struktur olan GÖUAM öz sülhyaratma qüvv
maq məsələsini qaldırmışdır, bu strukturun bəya
lum olur ki, bu, hər şeydən əvvəl neft kəmərlərin

liyini qorumaq üçün lazımdır. Baltik «trio»sunun da əlavə olunduğu bu təşkilat bu gün postsovet məkanındakı iki tendensiya - avtoritarizm və rəngli inqilablar arasındakı qarşıdurma şəraitində öz siyasi təsirini artıra bilər.

Hesab edirik ki, Dağlıq Qarabağ münaqişəsində ən səbrsiz tərəf Türkiyədir. Türkiyənin müəyyən tarixi dövrdə yenidən Ermənistanı «məhv etməsi» ətrafında nə cür ajiotaj yaradılırsa-yaradılırsın, aydındır ki, bu, elə əvvəlcədən süni ajiotajdır. Türkiyənin vəzifələri daha aydın və qlobaldır: o özünün sərbəst oyununu oynaya biləcəyi siyasi və iqtisadi məkanı genişləndirmək istəyir. Bu, milli təhlükəsizlik mülahizələrinə görə də ona zəruridir, o da Rusiya kimi harada - Şərqdə, yoxsa Qərbdə olduğunu müəyyənləşdirməyib. Türkiyənin Avropa Birliyinə tamhüquqlu üzv olması şanslarını məhdudlaşdıran Avropa ölkələrinə daha güclü təzyiqlər üçün bu vahid məkan siyasi cəhətdən də ona lazımdır. İqtisadi mülahizələr də bunu diqtə edir. Hərbi cəhətdən güclü olan Türkiyə enerji təhlükəsizliyi baxımından İrana əhəmiyyətli dərəcədə uduzur.

Ümumən regionun problemlərinə müxtəlif cür yanaşan Avropa ölkələri bu gün balans problemini, yəni ABŞ-ın dünyada vahid gücə çevrilməsini dayandırmaq və Rusiyanın qüdrətli dünya dövləti statusunu birdəfəlik itirməsinə imkan verməmək məsələsini həll etməyə məcburdurlar. Qafqaz siyasətinin olduqca ziddiyyətli və dolaşıq olmasının, hətta bəzən İran və Rusiyanın mövqelərinin haqsız olaraq dəstəklənməsinin səbəbi də elə budur.

Bu gün Ermənistan-Azərbaycan münaqişəsi və Cənubi Qafqazdakı digər münaqişələr ətrafındakı danışıqlar prosesi məhz bu güc müstəvisində cərəyan edir.



# Qarabağ müna
# iri dövlətlərin str

«
15

Beynəlxalq munasibətlər üzrə politoloq Elxan
rincə, Azərbaycan regionun bütün qüdrətli dövlə
lıqlı münasibətlərdə sabitliyin qorunması üçün in
oyun həyata keçirməyə məcburdur.

Elxan Nuriyevin iri dövlətlərin xarici siyasət str
rədə bilikləri heç də şayiələrə əsaslınmır. O, 19
lərdə ABŞ və Avropanın aparıcı politoloji institutl
litik mərkəzlərində işləmişdir, eyni zamanda
2004-cü ilədək C. Marşall adına Avropa Təhlükəsi
nin (AFR) «Sülh naminə tərəfdaşlıq» konsorsiumu
nubi Qafqazda münaqişələrin tənzimlənməsi ü
qrupunun həmsədri olmuşdur. Ekspertin Almaniy
siyasət və təhlükəsizlik problemləri institutunun
maniyaya növbəti səfəri ərəfəsində «Exo» qəzeti
sində politoloq ölkənin xarici siyasətinə, Qaraba
nizamlanmasına və regiondakı müasir vəziyyətə a
vab verdi.

**- ATƏT-in Minsk Qrupunun fəaliyyətini nec**
**dirirsiniz?**

- Hazırki şəraitdə Minsk Qrupunun fəaliyyətin
şıda duran vəzifələrin köklü həllinə böyük ümi
Lakin qeyd etmək lazımdır ki, MQ müstəqil quru
vasitəçilərin hərəkətlərinə həmsədr dövlətlər sank
randığı gündən MQ mahiyyət etibarı ilə Dağlıq
başa aidiyyəti olmayan, daha çox Cənubi Qafq
geosiyasətin öyrənilməsi ilə əlaqədar olan geosy
başlandığı platformaya çevrilmişdir. Məsələn, da
sində iştirakı sayəsində ABŞ regionda özünün siya
ola bilsin ki, hərbi təsir dairəsini genişləndirmə
həmişə olduğu kimi buradakı əsas oyunçulardan
öz hökmranlığını qorumağa və möhkəmləndirmə
ləyir. Aİ tərəfindən dəstəklənən Fransa isə MQ-d
təsilə regionun əsas problemlərinin həllində

müəyyən iştirakını nəzərə çarpdırmaq istəyir. Sözsüz ki, bu dövlətlərin hər birinin öz milli prioritet və maraqlar konsepsiyası var. Deməli, məhz həmsədr dövlətlər bilavasitə MQ-ni təşkil etməklə və öz geosiyasi məqsəd və vəzifələrinin həyata keçirilməsini təmin etməyə çalışmaqla bu və ya digər məsələ üzrə konkret siyasi qərarları müəyyən edirlər. Buna görə də Rusiya, ABŞ, Aİ və NATO-nun strateji maraqlarının toqquşması (İran və Türkiyə arasındakı regional ziddiyyətləri də buna əlavə edək) belə mürəkkəb vəziyyətin yaranmasına gətirib çıxarmışdır və hələ də Ermənistan-Azərbaycan münaqişəsinin nizamlanmasında hələ də irəliləyiş yoxdur.

**- «Praqa prosesi» adlandırılan hazırkı danışıqlar prosesini necə qiymətləndirirsiniz?**

- Söhbət münaqişə tərəflərinin XİN başçılarının görüşlərinin yeni formatından gedir, hər iki ölkənin nazirləri ilə həmsədrlərin ayrı-ayrı görüşləri və danışıqları da buraya daxildir. Hesab edirəm ki, son vaxtlar MQ olduqca fəallaşıb. Həmsədrlər danışıqlar prosesinin irəliyə getməsində təkan rolunu oynaya biləcək konkret fəaliyyət planının zəruri olduğunu başa düşüblər. Mənim fikrimcə, indi həmsədrlər məhz bu istiqamətdə işləyirlər.

Vasitəçilərin əsas vəzifəsi münaqişə tərəfləri arasında mühüm məsələlər üzrə müəyyən konsensusa nail olmaqdan ibarətdir. Hələ ki fikir mübadiləsi gedir, lakin istisna deyil ki, artıq həmsədrlər məqsədyönlü Ermənistan-Azərbaycan danışıqlarının aparılmasının başlanğıcı ola biləcək müəyyən aralıq sənədinin hazırlanması barədə düşünməyə başlayıblar.

**- Qarabağ münaqişəsinin nizamlanmasına dair Rusiya və ABŞ-ın öz variantlarının olduğunu söyləmək olarmı?**

- Rusiya, şübhəsiz ki, münaqişənin həllində xüsusi rol oynamaqda davam edəcəkdir, lakin bu o demək deyil ki, ABŞ kənarda qalacaqdır. Bakı ilə Moskva arasındakı bu günkü strateji yaxınlaşmaya baxmayaraq, Azərbaycanla Rusiya arasındakı qarşılıqlı münasibətlərin gələcəyi daha çox Qarabağ münaqişəsinin nizamlanması məsələsində Kreml rəhbərliyinin mövqeyindən asılıdır. Ümumiyyətlə, mənim fikrimcə, Rusiya və ABŞ bu münaqişənin nizamlanması üzrə ayrı-ayrı təşəbbüslərlə çıxış edirlər. Bir sözlə, bu hökmran dövlətlər vəziyyətdən istifadə edərək Ermənistan-Azərbaycan münaqişəsinin həllinə dair öz konsepsiyalarını təklif edirlər.

**- Necə düşünürsünüz, yaxın zamanlarda münaqişənin ni-**



**zamlanmasında irəliləyişlər gözlənilirmi?**

- Mənim fikrimcə, Azərbaycanda parlament
sonra vəziyyət aydınlaşacaqdır. Daha doğrusu, d
sesində daha çox fəallaşmanı, yəqin ki, artıq 200(
lində gözləmək olar. Hesab edirəm ki, Rusiya və
min həllinə daha fəal qoşulmağa məcbur olacaq
cür yeni geosiyasi vəziyyətdə Moskva və Vaşin(
məsələsinin nizamlanması üzrə MQ çərçivəsində
və konseptual strategiya işləyib hazırlamağa məcl
onu münaqişə tərəflərinə təklif edəcəklər.

**- Azərbaycanda Amerika radiolokasiya stansi**
**tikilməsinə rəsmi Moskvanın indiyədək heç bir**
**məməsi sizi təəccübləndirmir ki?**

- Xeyr, təəccübləndirmir. Mənim fikrimcə, bu ı
ki, RLS-in tikilməsi üzrə Amerika layihəsi rəsmər
dan öncə diplomatik kanallar vasitəsilə müzakirə
Hesab edirəm ki, Kremllə öncədən siyasi məs
aparılmış və yəqin ki, bu məsələ Rusiyanın ali r
razılaşdırılmışdır. Lakin regionumuzun ətrafında
cari proseslər Azərbaycanı çox ağır və mürəkkə
qoyur. Məsələn, Amerika-İran münasibətlərinin
gərginləşməsi Cənubi Qafqazda hərbi-siyasi vəziy
ləşməsinə səbəb ola bilər. Başqa sözlə, Vaşinqton
sındakı münasibətlərdə düşmənçilik amili artıq i
baycanın xarici siyasətinin mövqeyinə əhəmiyyət
rir. Bu halda Azərbaycan neytral qala bilməyəcək
zırkı şəraitdə rəsmi Bakı geosiyasi dilemma ilə c
hiyyət etibarı ilə İranla qarşılıqlı münasibətləri yol
da olan Azərbaycan eyni zamanda ABŞ-la strateji
ri qorumağa çalışır. Ən yaxın perspektivdə rəsmi
mühüm problem Vaşinqtonun və Tehranın strateji ı
sında balansın saxlanması olacaqdır.

# Təbliğatdan həzz alma, yoxsa ciddi danışıqlar?

*Vladimir Kazimirov,*
*səfir, 1992-1996-cı illərdə Rusiyanın vasitəçilik missiyasının rəhbəri, Rusiya Federasiyası Prezidentinin Dağlıq Qarabağ üzrə səlahiyyətli nümayəndəsi, ATƏT-in Minsk Qrupunun üzvü və Rusiyadan olan həmsədri.*

Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə nizamlanmasının ən mürəkkəb problemi ətrafında tərəflərin siyasi-təbliğat «qılıncoynatması» həmin problemi arxa plana keçirmiş oldu. Azərbaycan təkid etdi ki, işğal olunmuş ərazilərdə vəziyyət (orada ermənilərin yerləşdirilməsi adı altında) BMT Baş Assambleyasında müzakirə olunsun. Bakı münaqişəyə Avropa Şurası Parlament Assambleyası (AŞPA) tərəfindən baxılmasını stimullaşdırdı, o isə, öncədən bəllidir ki, nizamlanmada real rol oynaya bilməz, lakin opponentin ifşa olunması üçün tribuna kimi işə yaraya bilər.

Bakı diqqəti bütövlükdə münaqişənin əsas problemindən, yəni onun səbəbindən (Dağlıq Qarabağın (DQ) statusundan) yayındırıb silahlı qarşıdurmanın ağır nəticələrindən birinə - Azərbaycanın bir sıra rayonlarının işğalına cəlb etməyə çalışır. Bakılılar nəzərə alıblar ki, DQ-nin statusu əsasən erməniləri və azərbaycanlıları maraqlandırır, halbuki 11 illik müvəqqəti sülhdən qabaq Azərbaycan ərazisinin bir hissəsinin işğalı, köçkünlərin acınacaqlı taleyi daha geniş təəccüb və mərhəmət doğuracaqdır. Dünyada, hətta Avropada da Qarabağ münaqişəsinin necə inkişaf etdiyini, kimin onu güc yolu ilə həll etməyə cəhd göstərdiyini və illərlə bunda israrlı olduğunu və bunun işğaldan savayı həm də minlərlə yeni qurbanlara, böyük dağıntılara və sakinlərin kütləvi şəkildə köçməsinə səbəb olduğunu az adam bilir.

O vaxt hərbi uğurlara nail olmuş ermənilər həddən artıq arxayınlaşdılar, hətta bu gedişlərə əhəmiyyət belə vermədilər. Bununla belə, İrəvan DQ-nin danışıqlar prosesinə qaytarılmasını tələb etməklə Bakını öz təşəbbüslərini BMT-yə yönəltməyə və işğal olunmuş rayonların ermənilər tərəfindən məskunlaşdırılması siyasətinin yoxlanılması üzrə ATƏT missiyasının səfəri



ilə kifayətlənməyə məcbur etdi. Bu yoxlamanın nə
strukturları tərəfindən nəzərdən keçiriləcəkdir.
Strasburqda isə yanvarın 25-də AŞPA Terri Dev
Atkinsonun məruzələri əsasında DQ üzrə qətnam
lər qəbul etdi. Həddən artıq tarazlaşdırılmamış o
lər Bakıda sevinc, Ermənistanda isə daxili didişmə
çaşqınlıq doğurdu. AŞPA-dan olan «bilicilər» Da
məsələsi ilə bağlı özlərinə əziyyət vermədilər və
lərə» (silahlı münaqişənin mahiyyəti və gedişi) get
də olanlar»la kifayətləndilər. Qəflətən aşkar etdilə
verib və çoxdan pis vəziyyətdə olan köçkünlər v
ların hamısınn necə meydana çıxdığını və kimin r
olduğunu öyrənməyə vaxt sərf etmədilər. Onlar h
dilər ki, BMT Təhlükəsizlik Şurasının dörd qətnam
yetirilməsinə qarşı kim təxribat törətmişdir, kim
sinin dayandırılması haqqında danışıqları gah birl
gah da onlardan yayınmışdır! Görünür, AŞPA-da
lik əsasında gücə üstünlük verdiyini, Avropa Şur
münaqişəni yalnız sülh yolu ilə həll etməyə dair
dəliyi öz təhdidləri ilə tamamilə pozduğunu bilm
AŞPA-da ondan da xəbərsizdirlər ki, onların bi
ləri BMT Təhlükəsizlik Şurasının, Qarabağ məsəl
lanması ilə məşğul olan ATƏT-in mövqelərinə
Qrupunun həmsədrləri, eləcə də bu təşkilatlar D
qişə tərəfi olduğunu heç vaxt inkar etməyiblər,
Azərbaycan və İKT etmişlər. İndi isə AŞPA da hən
dir!
AŞPA-nın Bakını DQ nümayəndələri ilə təmas
ğa çağırması həvəskarlar səviyyəsində formulə e
nız onun statusunun müzakirə olunması üçün.
qüvvələrinin işğal olunmuş rayonlardan geriyə və
raya çəkilməsi barədə kiminlə razılığa gəlmək la
onların əvəzinə kim həll edəcəkdir?
Strasburqda Moskva elçilərindən savayı könl
kəs: norveçli, fransız, bolqar, polyak, türk - hamı
rədə fikir bildirdi. Ya problem onlara az tanışdır
miyyətlə onları maraqlandırmır. Heç bir çıxış ol
düzəliş edilmədi. Hətta söhbət münaqişə tərəflə
Rusiyanın rolundan getdikdə də bu, baş vermədi.
PA 1994-cü ilin mayında Qarabağda atəşkəsə na
görə Rusiyaya deyil, ATƏT nümayəndələrinə m

bildirir! Halbuki onların buna heç bir aidiyyəti olmayıb (qətnamədə adı çəkilən vəzifələr o vaxt ümumiyyətlə yox idi, onları xeyli sonra təsis etdilər). Bunları avropalıların dəqiqliyi və punktuallığı ilə bağlı sözgəlişi söylədim!

Aydındır ki, Qarabağ məsələsi həm ermənilər, həm də azərbaycanlılar üçün olduqca həssas məsələdir, bu barədə heç kimlə mübahisə edə bilmərik. Lakin dəvəquşu pozası qan tökülməsinə son qoymaqda çox mühüm rol oynamış Rusiyaya layiqdirmi? Axı əlverişli dayaq nöqtəsi var ki, o da həqiqətdir. Həqiqətləri bəyənməyənlər qoy təkcə Rusiyaya deyil, həqiqətlərə də etiraz etsinlər. Diplomatiyada ən yeni məxfi silahı - səmimiyyəti işə salmaq günah deyil. Lakin meşənin dərinliklərinə nə qədər gedirsənsə, odunlar bir o qədər çoxalır. Bizimkilər də keçmiş dənizlər hökmdarına tabe olan «yesmənlər» (rus dilinə tərcüməsi: «yaltaqlar») kimi yekdilliklə AŞPA-nın qərarlarının lehinə səs verdilər. Hərçənd ki, məruzəçi Atkinson kimi Moskvanın Strasburqdakı elçiləri də məruzənin, qətnamənin və tövsiyənin layihələrindəki çatışmazlıqlar barədə qabaqcadan xəbərdar idilər (Atkinsona ünvanlanan məktuba bax: www.vn.kazimirov.ru). Bəlkə bununla onlar atüstü bəyanatında Ermənistanı «Cənubi Qafqazda Rusiyanın forpostu» elan etmiş spiker Qrızlovun səhvini düzəldirdilər?

Qarabağda müharibə illərində onların sələfləri olan Rusiya parlamentariləri daha dəqiq və konstruktiv idilər və atəşkəsə faydalı töhfələrini vermişdilər. İndi Azərbaycanın işğal olunmuş rayonlarını yoxlayan ATƏT missiyasından xəbərlər gözləyək. Təbliğat real siyasətə mane olduğu kimi, missiyanın məruzəsi ətrafındakı ehtiraslar da Azərbaycan və Ermənistanın xarici ilşər nazirlərinin martın 2-də Praqadakı görüşünü mürəkkəbləşdirə bilər.

Hərçənd, adama elə gəlir ki, nəyinsə razılaşdırılıa biləcəyi bu cür görüşlərə qayğı ilə yanaşmaq lazımdır. Bir də gördün vaxtaşırı məsləhətləşmələrdən real və intensiv danışıqlar prosesinə körpü salınmış oldu. Uğurdan doğan eyforiyanın uğursuzluqdan doğan məyusluqla əvəz olunduğu mənasız söz davasına baş qoşmaq isə sonra da mümkündür, təki o, danışıqlara ciddi zərər yetirməsin.



# Vladimir Kazimirov: «Praqa
# tərəflər daxili aud
# sakitləşdirmək üçün düş

*«Day.Az»ın Vladimir Kazimiro*

**- Qarabağ münaqişəsinin bütün təfsilatlarını mat kimi danışıqların indiki vəziyyəti barədə n siniz?**

- Mən indiki vəziyyəti münaqişənin sülh y nöqteyi-nəzərindən normal hesab etmirəm. Ona münaqişənin nizamlanması həm Azərbaycan, həm tan üçün, xüsusən də Dağlıq Qarabağ üçün həya lidir. Lakin təmaslar, hətta onlar yuxarı səviyyələr bu əhəmiyyətə uyğundurmu? Mən hesab etmirəm İki dövlətin prezidentləri, xarici işlər nazirləri ilda görüşürlər, amma bu nəyi dəyişir? Necə deyərlə əvvəlki yerindədir». Əlbəttə, daha müntəzəm, dah lar lazımdır. Bütövlükdə danışıqlar prosesi, daha təzəm, danışıqların olmaması Qarabağ məsələsin masına və region xalqlarının gözləntilərinə qətiyy yil.

**- Danışıqlar prosesindəki yeni terminə - «Pı terminine necə yanaşırsınız?**

- Bu prosesi necə istəyirsiniz adlandırın. İstə zambik prosesi» adlandırın. Terminlər problemi dəyişmir. Bu, gəlişigözəl addır. Minsk Qrupu ki Minskin adını daşısa da, bircə dəfə də olsun Mins O ona görə belə adlanır ki, Qarabağ probleminin sı üzrə konfrans Minskdə çağırılmalı idi. Praqa p dikdə, deyə bilərəm ki, həqiqətən Praqada bir n çirilib, sonra isə belə görüşlər Frankfurtda, Londo Artıq indidən aydındır ki, gözəl səslənən «Praqa p kını tərəflər daxili auditoriyanı sakitləşdirmək üçü Əslində bu, mahiyyət etibarı ilə münaqişənin bütü mümkün qədər tez danışıqlar aparmaq tapşırığı Minsk Qrupu həmsədrlərinin iştirakı ilə iki xarici masaarxası görüşləridir. Minsk prosesi danışıq

ATƏT-in Dağlıq Qarabağ üzrə konfransına gətirib çıxarmadı. Praqa prosesinin haraya gedib çıxacağı isə hələ ki aydın deyil. İstisna deyil ki, sonu olmayan prosesin növbəti mərhələsinin təzahürü olan yeni paytaxt tezliklə peyda olacaqdır.

**- Siz deyirsiniz ki, bu proseslər heç bir nəticə verməyəcəkdir, axı siz də MQ-nin keçmiş həmsədri kimi danışıqlar prosesində uğurlarınızla öyünə bilməzsiniz?**

- Axı nizamlama prosesində əldə edilən uğurlar Minsk Qrupunun uğurlarıdır. 11 ildir qüvvədə olan atəşkəs rejimi Rusiyanın müstəsna xidmətidir. Məhz Rusiyanın sayəsində Bişkekdə atəşkəs haqqında saziş əldə edilmişdir, baxmayaraq ki, Minsk Qrupu üzrə bəzi tərəfdaşlarımız bizə müəyyən maneələr yaradırdılar.

**- Nə üçün üç böyük ölkə - Rusiya, ABŞ və Fransa iki kiçik ölkənin - Azərbaycan və Ermənistanın mübahisəsini hələ də həll edə bilmirlər, onlara nə mane olur?**

- Bu münaqişəni hər şeydən əvvəl münaqişəyə cəlb olunmuş ölkələr özləri həll etməlidirlər, böyük ölkələr isə sadəcə bu ölkələrin ortaq məxrəcə gəlməsi üçün onlara təsir göstərə bilərlər. Ciddi danışıqlar güzəştsiz olmur. Prezidentlər isə cəmiyyəti güzəştlərə hazırlamağa başlamayıblar, əksinə, uzun illər əmin ediblər ki, heç nə verməyəcək, yalnız alacaqlar. Ermənilər başa düşməlidirlər ki, işğal olunmuş əraziləri qaytarmalıdırlar, Azərbaycan isə başa düşməlidir ki, Dağlıq Qarabağın statusunu həll etmək lazımdır. Lakin hər iki tərəf lazımi məsələ ilə deyil, özü-özünü aldatmaqla məşğuldur. Atəşkəs rejimini möhkəmləndirən məsələlərlə məşğul olmaq və barışmaq lazımdır. Artıq Azərbaycan savaş terminlərindən, Ermənistan isə cəfəng ideya olan «azad edilmiş» ərazilər ideyasından, yəni Azərbaycanın işğal olunmuş əraziləri ideyasından imtina etməli və bu iki ölkənin gələcəyi naminə məsələlərə real baxmalıdırlar. Belə ki, bu ideyalar olduqca zərərlidir və gənc nəsillərin psixikasını korlayır. Mən artıq bir neçə ildir təkrar edirəm ki, danışıqlar prosesində Dağlıq Qarabağın iştirakı Azərbaycana yalnız xeyir gətirər. Siz isə bununla heç cür razılaşmırsınız. Kiminsə kənardan təzyiq göstərəcəyinə və bu problemin öz-özünə həll olunacağına ümid etmək isə sadəlövhlükdür.

**- Siz Avropa Şurasının Dağlıq Qarabağ üzrə həmməruzəçilərindən biri olan cənab Atkinsonun tənqidçilərindən birisiniz. Maraqlıdır, bu fikrinizdə qalırsınızmı?**

- Hesab edirəm ki, onu az tənqid etmişəm, o, daha çox tən-



qidə layiqdir. Cənab Atkinson öz məruzəsində yal
problemlərlə, yəni Azərbaycanın bir sıra rayonla
köçkünlərin ağır taleyi ilə kifayətləndi. O, silahlı
mahiyyətinə varmaq istəmədi. Əgər dərinə getn
çoxlu suallar yaranardı: bütün bunlar necə baş ve
hərbi əməliyyatlar bu qədər uzun müddət ərzində
və BMT Təhlükəsizlik Şurasının qətnamələri yer
yib? Axı münaqişə hüquq müstəvisində siyasi v
olunsaydı, heç bir işğal və onun nəticələri mövcud
nəd Bakıya münaqişəni güc yolu ilə həll etmək
rən ruhda tərtib edilib. Ona görə ki, ya erməni
gərdirlər, ya da daha konstruktivdirlər. Bütün b
münaqişənin mahiyyətinə varmaq istəməyən cən
səriştəsizliyini görürəm. Lakin yaddan çıxarmaq
PA-nın qərarı tövsiyə xarakteri daşıyır, tərəflər is
kəsizlik Şurasının məcburi qərarlarını belə yerinə
Bundan başqa, uzun müddət davam edən infor
doğrusu dezinformasiya müharibəsi sayəsində Qa
sinin nizamlanması ətrafında o qədər miflər, əfs
ideyalar meydana çıxmışdır ki, yeniləri çətin ki n
olsun.

**- Bəs münaqişənin mərhələli həlli barədə n**
**siniz?**

- Azərbaycan tərəfindən müdafiə edilən mərh
şə, əgər tərəflərin güc vasitələrini tətbiq etmək h
tina etmələri barədə etibarlı öhdəlikləri olmasa, h
belə mümkün deyil. Yalnız hədsiz dərəcədə sadə
ya digər tərəfin daha əlverişli mövqedən hərbi
bərpasına ümid etməsinə imkan verə bilər. Müna
da istər maddi təminatlar (azad edilmiş rayonların
siyası və s.), istərsə də sanballı beynəlxalq təmin
olunması tələb olunacaqdır. Düşünməyin ki, hən
tərəfindən, həm də böyük dövlətlər və beynəlxalq
rəfindən ciddi təminatlar olmadan Ermənistan D
ətrafında yerləşən yeddi rayonu sizə qaytaracaqdı
əvvəl, Azərbaycan münaqişənin güc yolu ilə həl
bəyanatlarına ciddi düzəlişlər etməli olacaqdır. Ö
ermənilər güc xarakteri daşıyan və kökündən
«azad edilmiş ərazilər» prinsipindən imtina etməl

**- İstər Azərbaycanda, istərsə də Ermənistan**
**dia edirlər ki, Qarabağ probleminin açarı Mosk**

**dir.**

- Bununla razıyam. Bu barədə mərhum Heydər Əliyev də mənə demişdi, o vaxt mən ona söylədim ki, onda Moskvaya imkan verin həmin açarı bursun, lakin o susdu… Mənə elə gəlir ki, Rusiyanın bu məsələni həll etməsini istəməyən qüvvələr var. Rusiya isə, sizi əmin edirəm ki, Qarabağ münaqişəsinin nizamlanması üçün çox şey edə bilər.

**- Münaqişənin həllində Türkiyənin rolunu necə qiymətləndirirsiniz?**

- Təəssüflə qeyd etməliyəm ki, Türkiyə Minsk Qrupunun üzvü olsa da, münaqişə tərəfi kimi çıxış edir. Məncə, Türkiyə bu cür birtərəfli qaydada Azərbaycanın tərəfində durmamalı idi. Belə olmasaydı, Türkiyə münaqişənin nizamlanması üçün çox şey edə bilərdi. İndi isə Türkiyənin edə biləcəyi maksimum kömək Azərbaycanı güzəştlərə getməyə razı salmaqdan ibarətdir.



# Səməd Seyidov: «Qarabağ Azərbaycanın ərazi b çərçivəsində həll edil

*10.(*

Yanvarın 9-da Avropa Şurasının Paris ofisində
sı Parlament Assambleyasının Ermənistan-Azərb
Qarabağ münaqişəsi üzrə alt komitəsinin növbəti
mişdir. Milli Məclisin AŞPA-dakı nümayəndə he
ri, komitənin üzvü Səməd Seyidov TA-nın müxbi
rəsində müsahibəsində demişdir:

- İclasda bu problemə dair ingilis deputat lord
ton tərəfindən yanvar sessiyası üçün hazırlanmış r
kirə olundu. Məruzədə keçən ilin yanvarında AŞ
qəbul edilmiş əsas prinsiplər öz əksini tapmışdır.
kə üçün olduqca pozitiv və mühüm məsələdir. Y
erməni hərbi birləşmələri tərəfindən Azərbaycan
ğalından, qaçqın və məcburi köçkün probleminin
dan, işğal olunmuş ərazilərdə etnik təmizləmə a
və digər analoji faktlardan ətraflı danışılır.

Bundan başqa, məruzədə Ermənistan tərəfind
muş Dağlıq Qarabağ ərazisində əhalinin qanuns
məsi ilə bağlı faktlara geniş yer verilmişdir.

Lakin bu məsələ ilə bağlı ölkəmiz üçün ən m
ondan ibarət oldu ki, Avropa Şurasının Parlamen
sı özünün qəbul etdiyi qətnaməyə uyğun olaraq
da fəaliyyətini davam etdirəcəkdir. Bu o deməkd
zin işğal altında olan əraziləri haqqında məsələ ö
nəlxalq hüquq normaları və Azərbaycanın ərazi b
çivəsində tapmalıdır.

Təkcə azərbaycanlı deputatlar deyil, həm də
vü olan Almaniya, İsveçrə və digər ölkələrin nüm
daha qeyd etdilər ki, Avropa Şurası beynəlxalq
Azərbaycanın ərazi bütövlüyünü tanıyır və bu mü
nız Azərbaycanın ərazi bütövlüyü və Dağlıq Qa
riyyət verilməsi çərçivəsində nizamlanmasını göz

# Hikmət Hacızadə: «Azərbaycan Rusiyanın sülhməramlı qüvvələrinin Qarabağ münaqişəsi zonasında yerləşdirilməsinə yol verməməlidir»

*Day.Az-ın Azərbaycanın Rusiyadakı keçmiş səfiri, politoloq Hikmət Hacızadə ilə eksklüziv müsahibəsi*

**- Hikmət bəy, bildiyiniz kimi, bir çox ekspertlər 2006-cı ili Qarabağ probleminin həlli ili hesab edirlər. Sizin fikrinizcə bu optimizm nəyə əsaslanır?**

- Mən Qarabağ probleminin bu il həll olunması ilə bağlı ümumi optimizmi paylaşmıram. Çünki mən nə münaqişənin səbəblərində, nə də hətta onu dəstəkləyən qüvvələrdə heç bir dəyişiklik görmürəm. Söhbət, əlbəttə ki, bu münaqişədən Ermənistana və Azərbaycana təzyiq rıçaqı kimi istifadə edən Rusiyadan gedir.

**- Sizcə, indi münaqişə tərəfləri arasında Minsk Qrupu formastında danışıqlar hansı axarda gedir?**

- Qarabağ probleminin nizamlanması üzrə bü gün müzakirə olunan sülh layihələrinin heç biri Azərbaycanın maraqlarına cavab vermir. Misal üçün, referendum layihəsini götürək. İşğal olunmuş bir neçə rayonun bizə qaytarılmasının və 10 ildən sonra onlar üzrə referendum keçirilməsinin, habelə Kəlbəcər və Laçının Dağlıq Qarabağa verilməsinin bizə yaxşı nəsə vəd etdiyini düşünmək sadəlövhlük olardı. Özü də bu zaman kommunikasiya xətlərinin çəkilməsi, yolların açılması və s. nəzərdə tutulur. Lakin Qarabağın statusu məsələsinin müzakirəsinin müddətləri məhdudlaşdırılmır.

Hər iki tərəfi qane edən sülh sazişinə nail olunması hazırki şəraitdə real deyil. Prosesə mane olan bir neçə əsas səbəb vardır. Belə ki, bu məsələdə çox şey Rusiyanın mövqeyindən asılıdır, o isə yuxarıda qeyd etdiyim səbəbə görə bu münaqişənin həllini istəmir. Nə qədər ki Rusiyanın bu cür mövqeyi dəyişməyib, hər hər hansı konstruktiv məsələlərdən danışmağın mənası yoxdur. Bundan başqa, Cənubi Qafqazda öz iqtisadi mövqelərini möhkəmləndirmək Qərbi də tam qane edir, qalan şeylər isə onu çox da maraqlandırmır.



**- İndi çoxları Rusiya sülhməramlı qüvvələ münaqişə zonasına gələcəklərini bəyan edirlər. perspektiv nə dərəcədə realdır?**

- Bilirsiniz, mən belə söhbətlərə inanmıram v iqtidarının buna gedə biləcəyini düşünmürəm. R ramlılarının Abxaziya və Cənubi Osetiyadakı acı zümüz önündədir. Əgər bizim hakimiyyət orqanl başağrısı istəmirlərsə, bu təklifi qətiyyətlə rədd et bəttə, sülhməramlı qüvvələrin münaqişə zonasın məsi Rusiyanın maraqlarına uyğundur, lakin biz öz milli maraqlarımızdan çıxış etməliyik.

**- Bəs Rusiya sülhməramlı qüvvələrin yerl təkid edərsə, onda necə?**

- O zaman bütün cəmiyyət ayağa qalxmalı və cür dönüşünə yol verməməyi iqtidardan tələb et niz, 366-cı Rusiya alayının Xocalıda qanlı qırğın lə bizim yaddaşlarımızda təzədir. Əgər biz bu cü sələrin gələcəkdə təkrarlanmasını istəmiriksə, R ramlılarının Qarabağda yerləşdirilməsinə bütü «yox» deməliyik.

**- Mənim bildiyimə görə, siz hələ də «Müs sı Divanının üzvüsünüz. Nə üçün müxalifət Q lemində lazımi prinsipiallıq nümayiş etdirmir?**

- Hələlik bu məsələ ilə bağlı xalqı qaldırmağ dur, çünki iqtidar hələ ki Qarabağın taleyi ilə b yəcan doğura bilən yanlış addımlar atmayıb. H həm də iqtidarın digər nümayəndələri daim bə onlar Azərbaycanın ərazi bütövlüyü məsələsində tə getməyəcəklər. Lakin bu o demək deyil ki, m bağın taleyinə biganədir, o, danışıqlar prosesini d və əgər biz görsək ki, iqtidar Azərbaycanın ər prinsipindən geri çəkilir, əlbəttə ki, müxalifət əllə lıb oturmayacaq.

# Əli Kərimli: «Əgər biz Azərbaycan iqtidarının Qarabağ məsələsində vətənpərvər addımlara hazır olduğunu görsək, əlbəttə ki, onları dəstəkləyəcəyik»

*Day.Az-ın AXCP («islahatçılar») sədri Əli Kərimli ilə eksklüziv müsahibəsi*

**- Bir sıra ekspertlər açıq bəyan edirlər ki, bu il Qarabağ məsələsi sükunət nöqtəsindən tərpənəcəkdir. Necə düşünürsünüz, belə söhbətlər nə qədər əsaslıdır və bu münaqişə Azərbaycanın xeyrinə həll ediləcəkmi?**

- Mən düşünürəm ki, Qarabağ problemi ilə məşğul olan beynəlxalq strukturlar hər bir azərbaycanlı üçün taleyüklü olan bu məsələ ilə bağlı biləərəkdən «informasiya sızmasını» təşkil ediblər. Lakin bizdə həm də informasiya var ki, beynəlxalq təşkilatlar Qarabağ problemini Azərbaycan üçün hansı şərtlərlə nizama salmağa hazırlaşırlar. İşğal edilmiş bəzi rayonların işğalçılar tərəfindən azad olunması müqabilində beynəlxalq təşkilatlar bizim ölkədəki iqtidarın müəyyən vaxtdan sonra Dağlıq Qarabağ erməniləri arasında tarixən Azərbaycana məxsus olan Qarabağın statusunun müəyyən edilməsi üzrə referendum keçirilməsi barədə sazişə imza atmasına nail olmağa çalışacaqlar. Düşünürəm ki, heç kimdə şübhə doğurmur ki, bu, Qarabağın Azərbaycandan qoparılması variantıdır. Buna görə də biz mümkün olan bütün səylər və tədbirlər vasitəsilə bu planın həyata keçməsinə qarşı çıxmalıyıq. Biz ATƏT-in Minsk Qrupu həmsədrlərinə müraciət etdik və bizimlə görüşmələrini xahiş etdik. Axı onlar dəfələrlə bəyan etmişlər ki, Ermənistan və Azərbaycanın təkcə hökumətləri tərəfindən deyil, həm də xalqları tərəfindən bəyəniləcək sülhü bərqərar etməyə çalışırlar. Biz onlara xəbərdarlıq edirik ki, Azərbaycan xalqı bu cür «sülhü» tanımır və biz bu cür biabırçı «sülhün» Azərbaycan xalqına sırınmaması üçün hər şeyi etməyə hazırıq. Bununla belə, gizlətməyəcəyəm ki, bu il beynəlxalq təşkilatlar tərəfindən Azərbaycana həmin «sülhü» sırımaq cəhdlərinin maksimum artırılacağına dair ciddi təhlükə vardır.



**- Siz deyirsiniz ki, Qarabağ məsələsində biabırçı «sülhün» sırınmasına yol verməmək ü vənizi sərf edəcəksiniz. Bəs onda ölkəmizin A olmasından əvvəl Azərbaycan müxalifətinin Q ləsini qaldırmamaq öhdəliyini üzərinə götürmə kirlər necə olsun?**

- Bu, düzgün informasiya deyil, bizim belə ö yoxdur. Üstəlik, Qarabağ alver predmeti ola bilm Azərbaycan adlı Vətənimizin bir hissəsidir və biz v lə işğal olunmuş ərazilərin azad olunmasına nail şacağıq.

**- Siz beynəlxalq təşkilatlar tərəfindən bizim rabağ məsələsində «sülhün» sırınmasına yol ver Azərbaycan iqtidarı ilə əməkdaşlığa hazırsınızm**

- Nəzəri cəhətdən bəli. Lakin biz Azərbaycar Qarabağın qaytarılması üzrə pozitiv səylər gözlə əgər biz Azərbaycan iqtidarının Qarabağ məsələ pərvər addımlara hazır olduğunu görsək, qarşılıql sibətlərimizdən asılı olmayaraq, əlbəttə ki, onları yik.

**- Və sonuncu sual. Bütövlükdə 2006-cı ill hansı ümidlər var?**

- Düşünürəm ki, müxalifət parlamentin iclasla rar seçkilərdə iştirak edib-etməmək məsələsində gəlməlidir. Mənim fikrimcə, bu, parlamentin ic təkrar seçkilərdə iştirakdan aydın və qəti imtina dır. Bu ideoloji bazada biz öz real müxalifət qüv muzu yaratmalıyıq, həmin qüvvələr iqtidarla oyun edərək ölkədə demokratik dəyişikliklər uğrunda re bəzən də radikal mübarizəyə başlamalıdırlar. Əgə xalifət qüvvələrinin birləşməsinə nail olsaq və tək seçkilərində və parlamentin iclaslarında iştirakdan ləsində öz prinsipial mövqeyimizi nümayiş etdirə bizi başa düşməsinə və etimadına nail ola və ye Azərbaycanda demokratiya uğrunda mübariz bilərik.

# «Avropa Şurası, ATƏT və Aropa Birliyi əl-ələ verərək münaqişəni həll etməlidir»

*«Bizim Azərbaycan naminə», 24.11.05*

Biz istərdik ki, bu bölmədə 2006-cı ildə DQ munaqişəsinin həlli istiqamətində yarana biləcək irəliləyişlərin perspektivləri barəsində rəsmi şəxslər, siyasətçilər və cəmiyyətin digər fəal üzvlərinin mövqelərini əks etdirək.

«Bizim Azərbaycan naminə» qəzetinin münaqişənin 2006-cı ildə həll olunmasına dair yazdığı məqalədə qeyd olunur ki, Bakıya səfəri çərçivəsində Belçika Krallığının ATƏT-dəki xüsusi nümayəndəsi, senator Pyer Şevalyenin rəhbərlik etdiyi nümayəndə heyəti Azərbaycan rəsmləri və Dağlıq Qarabağın azərbaycanlı icmasının nümayəndələri ilə görüşlər keçirib. Gələn ildən ATƏT-ə rəhbərlik edəcək Belçika KrallığInın nümayəndəsi Azərbaycandan öncə ABŞ-da görüşlər keçirdiyini, rəsmi Vaşinqtonun Qarabağ probleminin 2006-cı ildə həll olunması istəyində olduğunu söyləyib: «Avropa Şurası, ATƏT və Aropa Birliyi əl-ələ verərək münaqişəni həll etməlidirlər. Problem ya gələn il həll olunacaq, ya da heç vaxt. 2007-ci ildə Ermənistanda, 2008-ci ildə Azərbaycanda prezident seçkiləri keçiriləcək. Buna görə də həmin illərdə problemin həlli ilə ciddi məşğul olmağa imkan olmayacaq».

Qəzet münaqişələr üzrə mütəxəssis, Sülh və Demokratiya İnstitutunun nümayəndəsi Arif Yunusa istinadən yazır ki, 2007-ci ildə Ermənistanda, 2008-ci ildə Azərbaycanda prezident seçkiləri keçiriləcək. Təcrübə göstərir ki, seçkilər zamanı heç bir tərəf komprimissə getmir. Qərbdə hesab edirlər ki, bu fikirlər münaqişə tərəflərini problemin həllinə «hə» yaxud «yox» deməyə məcbur edəcək. Əslində isə növbəti 20-25 ildə Dağlıq Qarabağ münaqişəsi həll edilməyəcək. Belə ki, hazırda nə Azərbaycan, nə də Ermənistan cəmiyyəti kompromissə razılıq verməyəcək. Həmişə bildirilir ki, hər iki tərəf sülhün tərəfdarıdır. Amma heç vaxt aydınlaşdırılmayıb ki, Azərbaycan və Ermənistan üçün sülh nə deməkdir. Ermənilər istəyir ki, Dağlıq Qarabağ ya müstəqil olsun, ya da Ermənistanın tərkibinə daxil edilsin. Azərbaycan tərəfi isə buna heç vaxt razılıq verməyə-



cək. Rəsmi Bakının torpaqların azad edilməsində
sun müəyyənləşdirilməsinə də Ermənistan razılıq
Hər iki tərəf istəyir ki, sülh yolu ilə nə isə qazansı
nəticəsində hər iki münaqişə tərəfi güzəştə getmə
reallığı nəzərə aldıqda tərəflərin buna hazır olma
R. Köçəryanın indiki məqamda müəyyən güzəştlə
məsi onun üçün siyasi ölümə bərabər olardı. O,
duğu üçün adi ilə uğursuz sülh sazişinin imzalanı
verməyəcək. İlham Əliyev də Qarabağın itirilməs
nən sülh sazişinə imza atmayacaq. Belə olan hald
də münaqişənin tamamilə həllini düşünmək səh
naqişənin həllində hər iki xalqı qane edən sülhə
zımdır».

Arif Yunus prezidentin Kazan görüşündə Dağl
yerli əhalisi arasında statusun referendum vasitəsi
ləşdirilməsinə Azərbaycan tərəfinin razılıq verd
«Bunu tam məsuliyyəti ilə bildirirəm ki, həm Az
zidenti həm, də XİN bu məsələyə razılıq verib. A
diki məqamda bu məsələninin ictimaiyyətə açıql
qəsədəmüvafiq hesab etmirlər. Əlverişli məqam
min məsələnin təfərrüatı açıqlanacaq. Həmin refe
mənilər birmənalı şəkildə Azərbaycanın tərkibin
razılıq verməyəcəklər. Bu referendum on il sonra
lə, nəticə eyni olacaq. Hazırda hüquqi baxımdan
mənalı şəkildə Azərbaycan ərazisidir. Amma refe
lıq vermək, Qarabağı birdəfəlik itirmək olardı».

# Rasim Musabəyov: Qarabağ münaqişəsinin həll olunmamasının əsas səbəbi qüdrətli dövlətlərin maraqlarındakı ziddiyyətlərdir

*29.12.04, «Turan» İA*

Tanınmış politoloq Rasim Musabəyov «Turan»a müsahibəsində Qarabağ məsələsinin nizamlanması nöqteyi-nəzərindən 2004-cü ilin yekunlarını şərh etdi.

Onun fikrincə, danışıqlar prosesində ötən il canlanma müşahidə olunmuşdur, əvvəlki iki ildə isə onlar faktiki olaraq dondurulumuşdu. Bu, təkcə Azərbaycanda və Ermənistanda seçkilərlə bağlı deyildi, həm də İraq böhranı və beynəlxalq terrorizmin doğurduğu qlobal təhlükələr ucbatından Qarabağ münaqişəsinə marağın müvəqqəti itirilməsi ilə əlaqədar idi. Eləcə də həm diplomatik baxımdan (AŞPA-da, BMT Baş Assambleyasında), həm də Ermənistan üçün yüklərin tranzitinin sərtləşdirilməsi baxımından Azərbaycan tərəfindən Ermənistana təzyiqin artırılmasını pozitiv hal kimi qeyd etmək olar.

Silahlı qüvvələrin möhkəmləndirilməsi üzrə Bakının tədbirləri Ermənistanı məcbur edir ki, hərbi balansı saxlamaq üçün öz məhdüd maliyyə imkanlarını həddən artıq gərginləşdirsin. Lakin bütün bunlar ermənilərin öz ilhaqçı planlarından əl çəkmələri üçün hələlik kifayət deyil, amma Musabəyov hesab edir ki, Bakının səyləri onları daha konstruktiv notlara köklənməyə vadar edə bilər.

Ötən il danışıqlar prosesində köklü irəliləyişlər baş verdimi və yüksək səviyyəli görüşlərin gedişində müzakirələrin predmeti nədən ibarət idi?

Politoloq hesab edir ki, köklü irəliləyişlərdən dlanışmaq tezdir. Azərbaycanda dövlət başçısı və XİN rəhbəri dəyişmişdir, buna görə də erməni tərəfi ilə onların görüşü tanışlıq xarakteri daşımışdır. Əvvəlki illərdən fərqli olaraq, Rusiya və İranın, görünür, Qərbin səylərinə qoşulmağa və Ermənistanla Azərbaycan arasında qarşıdurmanı zəiflətməyə meylli olmaları ehtiyatlı optimizm doğurur. Lakin arxayınlaşmaq olmaz, çünki əvvəllər də tərəflər hər hansı razılaşmaya yaxın olmuş, lakin son anda razılaşmaların həyata keçirilməsindən imtina etmişdilər.



«Praqa prosesi» deyildikdə nə nəzərdə tutulur
İlham Əliyev ötəri olaraq jurnalistlərə məlumat
bət mərhələli nizamlama planının hansısa modi
gedir. Bu, müsbət haldır, çünki beynəlxalq prakti
yalnız bu müstəvidə real tərəqqiyə nail olmaq o
çəryanın və onun ətrafının inadla təkid etdikləri
riantından imtina üçün erməni tərəfinin nə tələb
sələsi açıq qalır deyə Musabəyov qeyd etdi. Eyni
Köçəryanın belə bir söz dediyini xatırladtı ki, ə
planı Şuşa və Laçına, habelə Kəlbəcər rayonuna
sa, o, həmin planı müzakirə etməyə razılıq verə b
rə də, ola bilsin ki, söhbət ermənilər tərəfindən
ərazilərin, cavab addımları müqabilində (nəqliy
açılması, hərbi qarşıdurmanın azaldılması, beynə
dəçilərin əraziyə daxil olması və s.), azad olunm
Lakin heç bir aralıq razılaşmalar, hətta müvəqqə
mənistan tərəfindən Azərbaycan ərazilərinin tutu
laşdırmamalıdır, deyə Musabəyov qeyd etdi.

Qarabağ məsələsinin nizamlanmasında vas
dövlətlərin mövqeyini necə qiymətləndirmək olar
və münaqişəni obyektiv nizamlamaq istəməməsin
in Minsk Qrupunun rəsmi Bakı tərəfindən tənqi
dərəcədə əsaslıdır?

Ekspert hesab edir ki, vasitəçilər öz məqsədl
və obyektivlik və ədalətlilik məsələsi onları hər
rahat edir. Lakin əsas geosiyasi oyunçular (Rusiy
bir şeydə həmrəydirlər - onlar Azərbaycanla Erm
da irimiqyaslı hərbi əməliyyatların bərpasını istə
mövqeyi ondan ibarət idi ki, münaqişə istənilən
rəfindən İrəvana güzəştlər edilməsi hesabına) tez
Ermənistan Rusiyanın təsirindən azad edilsin və
NATO-ya və Aİ-yə doğru istiqamətləndirilsin. Ö
Rusiya münaqişəni dondurmağa və regionda uzu
Moskvanın təsirini möhkəmləndirən həllə nail ol
Bütün bunlar Minsk Qrupunun fəaliyyətində öz i
və onun real həllə qadir olmadığını müəyyənləşd

Minsk Qrupunu tənqid etmək olar və bunun
var. Lakin münaqişə tərəfləri ilə geosiyasi oyunç
mövcud olan balansı yaddan çıxarmaq olmaz. Bal
cana lazım olan istiqamətdə dəyişmədən Bakı
həllə nail olmaq mümkün deyil. MQ həmsədrləri

dəcə məmurlardır, özü də yüksək rütbəli olmayan məmurlardır.

Ötən il nizamlama prosesinə dünyadakı geosiyasi vəziyyət necə təsir etmişdir?

Antiterror kampaniyası və İraqdakı əməliyyat böyük dövlətlərin və beynəlxalq birliyin diqqətini Qarabağ məsələsinin həlli problemindən yayındırdı. Lakin ötən ildəki bir neçə məqam müsbət nəticələr doğurdu. Gürcüstanda «qızılgül inqilabı»nın həyata keçirilməsi diqqəti regiona yönəltdi. Cənubi Qafqaz Aİ-nin «Yeni qonşuluq» proqramına daxil edildi, Azərbaycan və Gürcüstan NATO ilə fərdi əməkdaşlıq planını imzalamaq niyyətlərini elan etdilər, bu isə həmin bloka inteqrasiya istiqamətində mühüm addımdır.

Gürcüstanın yeni hakimiyyəti dünyaya birmənalı siqnal göndərdi ki, münaqişələrin dondurulması və separatistlərə fürsət verilməsi ilə barışmaq niyyətində deyillər. Qərb və Rusiya Saakaşvilini güc tətbiq etmə hərəkətlərindən müvəqqəti çəkindirsələr də, silahlı qüvvələrini möhkəmləndirdikdən sonra Tbilisi tərəfindən Gürcüstanın ərazi bütövlüyünün bərpası üzrə qətiyyətli addımlar atılmayacağına zəmanət yoxdur.

Bu, Azərbaycanda analoji hərəkətlərə təkan verə bilər və Cənubi Qafqazda böhran vəziyyəti yarana bilər. Əgər hadisələr bu ssenari üzrə getsə, tezliklə regiona sülhməramlı qüvvələr bayrağı altında NATO daxil olacaqdır (Yuqoslaviyada olduğu kimi). Üstəlik, BTC-nin tikintisi də başa çatır və ABŞ-la İran arasında ziddiyyətlər artır. Bütün bunlar böyük dövlətlərin öz təsirlərindən istifadə etmələri və İrəvanı daha konstruktiv olmağa təhrik etmələri üçün müəyyən zəmin yaradır. İstənilən halda Azərbaycan ordunu maksimum möhkəmləndirməlidir, bunun üçün Azərbaycanın imkanları Ermənistandan çoxdur, deyə Musabəyov fikirlərini yekunlaşdırdı.



# Hamıya lazım (

R.
«Zerkalo» qəz

Yəqin ki, Ermənistan-Azərbaycan münaqişə
həllini gözləməyə dəyməz.

Belə görünür ki, Ermənistan-Azərbaycan mün
zamlanması əslində finiş xəttinə yaxınlaşır. Slov
taxtında başa çatmış ATƏT-in Nazirlər Şurasının
sında Qarabağ münaqişəsi üzrə bəyanat qəbul ed

Qərb KİV-lərinin verdiyi məlumata görə, sən
şənin nizamlanması üzrə Praqa prosesi çərçivəsin
və Azərbaycan prezidentləri arasında danışıqlard
də edilir. Nazirlər Şurası ümid etdiyini bildirir ki,
şıqlardan konkret qərarların qəbuluna keçməyə
lar.

Buna görə də ATƏT-in Nazirlər Şurası iki dö
2006-cı ildə ATƏT-in Minsk Qrupu çərçivəsindək
tərəqqiyə nail olmaq üçün mövcud imkanlardan
yə çağırır. Yeri gəlmişkən, xatırlatmağa dəyər ki,
rinin xarici işlər nazirləri Qarabağ münaqişəsi üzr
raq ona görə ayrıca bəyanat qəbul etməli olmuşl
nın yekun sənədini razılaşdırmaq mümkün olman

Eyni zamanda, bütün maraqlı tərəflər, o cüml
xalq vasitəçilər 2006-ci ildə sülh sazişinin imzala
olduğunu bəyan edirlər. Hətta vasitəçilər bildirirlə
şə tərəfləri konkret məsələlərin və həll yollarının
artıq hazırdırlar.

Bu dəfə bizimlə zarafat etmirlər. Əks halda
izah etmək çox çətin olardı ki, bu gün xətri istəy
sı Qarabağ münaqişəsinin nizamlanmasında vasit
hazırdır. Hətta İran, Qazaxıstan, Ukrayna (biz h
demirik) bu münaqişənin nizamlanmasında iştirak
lər. Hamı özünü kameralar önündə sülhməramlı k
yə çalışır.

Lakin Ermənistan-Azərbaycan sülhünün bərqər
sözsüz ki, daha çox ABŞ maraqlıdır. Son günlər V
təlif yüksək vəzifəli şəxslərin dili ilə iki dəfə bu
nasibətini bildirmişdir. «ABŞ Dağlıq Qarabağ
həlli prosesində əldə edilən pozitiv tərəqqini al

bəyanatla ABŞ dövlət katibinin siyasi məsələlər üzrə müavini Nikolas Barns çıxış etmişdir. Onun sözlərinə görə, «Vaşinqton əmindir ki, Azərbaycan və Ermənistan şəffaf və ədalətli sülhün bərqərar edilməsi üçün 2006-cı ildə böyük addımlar ata biləcəklər». Bu məqsədlə Nikolas Barns Azərbaycanı və Ermənistanı ATƏT-in Minsk Qrupu ilə sıx əməkdaşlığa çağırmışdır. «Hər iki dövlət başçısı ATƏT-in Minsk Qrupu ilə sıx əməkdaşlıq etməlidir ki, Cənubi Qafqaz xalqları Dağlıq Qarabağ münaqişəsini yaddaşlarından silə bilsinlər və o, yalnız tarixin bir hissəsi olaraq qalsın».

ATƏT-in Minsk Qrupunun ABŞ-dan olan həmsədri Stiven Mən isə danışıqlar prosesinin seçkilərdən sonrakı mərhələsinə yeni ümidlər bəsləyir. «Qarabağ münaqişəsinə cəlb olunmuş ölkələrdə 2006-cı ildə iri siyasi hadisələr və seçkilər olmayacaq və biz bundan istifadə etməliyik», - deyə amerikalı həmsədr Stiven Mən bildirmiş və əlavə etmişdir ki, «danışıqlar prosesi indiyədək olmayan dərəcədə dərinləşmiş və yüksək səviyyəyə çatmışdır».

Hətta Ermənistan Azərbaycanı «şantaj edərək» sülh prosesini sürətləndirməyi tələb etmişdir. Bu ölkənin prezidenti sülh danışıqlarının uzanacağı təqdirdə Azərbaycanı Dağlıq Qarabağın müstəqilliyinin tanınması ilə təhdid etmişdir. Lakin tərəflərin ən azı yüksək səviyyələrdə verdikləri açıq bəyanatlara inansaq, ilk baxışdan elə görünür ki, əsas məsələ üzrə, yəni Dağlıq Qarabağın statusu üzrə Bakının və İrəvanın mövqeləri heç də üst-üstə düşmür. Yeni seçilmiş parlamentin ilk iclasında prezident İlham Əliyev açıq şəkildə bəyan etdi ki, Azərbaycan ölkənin ərazi bütövlüyü ilə bağlı heç bir güzəştə getməyəcək. «Sülhün on ildən artıq qorunub saxlanması Azərbaycan tərəfindən ən böyük güzəştdir», - deyə o, bildirdi.

Robert Köçəryan vəziyyəti tamamilə başqa gür qiymətləndirir. O bildirir ki, Dağlıq Qarabağ müstəqil olmalı, yaxud Ermənistanın tərkibinə daxil olmalıdır. Lakin istənilən halda Bakı ilə Xankəndi arasında heç bir şaquli tabelik münasibətləri olmamalıdır. Beləliklə, əgər dövlətlərin birinci şəxslərinə inansaq, Dağlıq Qarabağın gələcək statusu məsələsində tərəflərin mövqeləri bir-birinin tam əksidir. Hərçənd ki, əgər iki dövlətin xarici işlər nazirlərinin bəyanatlarını diqqətlə təhlil etsək, belə nəticəyə gəlmək olar ki, birinci şəxslər daha çox publika üçün danışırlar.

Həmin bəyanatları daha diqqətlə nəzərdən keçirək. Azər-



baycanın xarici işlər naziri Elmar Məmmədyarov
siyasında bəyan etdi ki, Azərbaycanın işğal olun
nin azad edilməsi Dağlıq Qarabağın statusunun m
məsində əsas ilkin şərtdir. «Dağlıq Qarabağın stat
nuni, sülhpərvər və demokratik proses çərçivəsi
edilə bilər, həmin proses etnik təmizləmələrə əsas
- deyə o, bildirdi. E. Məmmədyarova istinadən «
diyi məlumata görə, nazir həmçinin demişdir ki, «
bağın statusu yalnız Dağlıq Qarabağda yanaşı ya
və azərbaycanlı icmalarının rəylərinin lazımi və b
da nəzərə alınması şərti ilə müəyyən edilə bi
mümkün olması üçün Azərbaycanın işğal olunm
azad edilməsi əsas ilkin şərtdir. İşğal olunmuş ə
mənistan qoşunları çıxarıldıqdan sonra bütün nəc
ləri hər iki tərəf üçün açılmalıdır. Səmərəli sülh
nilər və azərbaycanlılar Laçın dəhlizindən hər ik
birgə istifadə edəcəklər. Azərbaycan hökuməti i
cəlb olunması vasitəsilə regionun infrastruktur
üçün Dağlıq Qarabağ bölgəsinin hər iki icmasın
tərməyə hazırdır», - deyə Elmar Məmmədyarov b

O qeyd etmişdir ki, «Kosovonun statusunun m
məsi prosesi, onun nəticəsindən asılı olmayaraq, 
sedent yaratmamalıdır». «Kosovoda münaqişənin
prosesində gələn ilin həlledici olacağı gözlənilir.
qəti və birmənalı mövqeyi ondan ibarətdir ki, b
Təhlükəsizlik Şurasının 1244 saylı qətnaməsinə v
kun aktına uyğun olaraq cərəyan etməlidir və nət
lı olmayaraq, hər hansı presedent yaratmamalıdır»
Məmmədyarov bildirmişdir.

Qeyd edək ki, Ermənistanın xarici işlər naziri V
yan öz çıxışında ATƏT-in üzvü olan ölkələrin Xari
ləri Şurasının Lyublyana sammitindəki çıxışında b
ki, Şərqi Timorun müstəqillik qazanması, Sudand
edən tərəflər arasında sazişin imzalanması, Kosov
nun müəyyən edilməsi Dağlıq Qarabağ münaqiş
sedent hesab edilməlidir.

Tərəflər, ilk növbədə Ermənistan heç də təsad
nu xatırlatmırlar. Belə ki, Qərb diplomatları hət
ki, gec-tez, hətta çox cüman ki, gələn il ərzində K
kun statusu müəyyən ediləcəkdir. Eyni zamand
müstəqil dövlət olacağına və Avropa strukturların

Avropa İttifaqına inteqrasiya üçün real perspektivlərə malik olacağına tam əminlik ifadə edilir. Vardan Oskanyan məhz belə perspektiv barəsində danışırdı.

Lakin gəlin bizim nazirin çıxışına qayıdaq, həmin çıxış ahənginə və məzmununa görə dövlət başçısının yuxarıda qeyd edilən bəyanatından kökündən fərqlənir. Dağlıq Qarabağın gələcək statusu ilə bağlı xarici işlər nazirinin aydın mövqeyi yoxdur. Məlum olur ki, Dağlıq Qarabağın statusu yalnız hansısa «qanuni, sülhpərvər və demokratik proses» çərçivəsində həll oluna bilər. Məgər Dağlıq Qarabağın gələcək statusunun müəyyən edilməsi üçün referendum keçirilməsini təklif edən ermənilər bunu tələb etmirlərmi? Doğrudur, E. Məmmədyarov onu da demişdir ki, «Dağlıq Qarabağın statusu yalnız Dağlıq Qarabağda yanaşı yaşayan erməni və azərbaycanlı icmalarının rəylərinin lazımi və bərabər qaydada nəzərə alnması şərti ilə müəyyən edilə bilər». Lakin «əhalinin rəyinin nəzərə alınması» məsələsində nə bizdə, nə də Ermənistanda heç bir problem yoxdur, bunu bizdə keçirilmiş parlament seçkiləri və onlarda keçirilmiş konstitusiya dəyişikliklərinə dair referendum sübut edir.

Problem ondan ibarətdir ki, Azərbaycan döyüş əməliyyatlarına başlayacağı ilə Ermənistanı nə qədər təhdid edirsə-etsin, dünyada heç kim bu bəyanatları ciddi qəbul etmir. İş heç də resursların olmamasında deyil. Bu məsələdə ilk baxışdan Azərbaycanda hər şey qaydasındadır. Səbəb başqadır. İş orasındadır ki, sülh prosesinin həmsponsorları, ilk növbədə Vaşinqton döyüş əməliyyatlarının bərpasının əleyhinədirlər, çünki bu, ABŞ-ın geosiyasi planlarının reallaşmasına mane olacaqdır. Buna görə də Vaşinqtonda həm azərbaycanlıları, həm də erməniləri qorxutmaqdan yorulmurlar ki, döyüş əməliyyatlarını bərpa edən tərəf beynəlxalq birliyin sərt reaksiyası ilə qarşılaşacaqdır. Prinsipcə terrorizmlə və qanunsuz silahlı dəstələrlə mübarizə adı altında blits-kriq (ani hücum) etməyə və Dağlıq Qarabağ xaricində işğal olunmuş ərazilərin çoxunu azad etməyə cəhd göstərmək olar. Üstəlik, döyüş əməliyyatları əhalinin yaşamadığı əraziləri əhatə edəcəkdir. Sonra isə sülh danışıqlarına başlamaq, lakin bunu «mövcud reallıqları» öz xeyrinə dəyişdikdən sonra etmək olar. Amma bunun üçün Azərbaycan demokratik, insan hüquqlarına hörmət edən dövlət nüfuzuna malik olmalıdır ki, beynəlxalq birlik rəsmi Bakını bir qədər məzəmmət etdikdən sonra hər halda bu cür «itaətsizliyi» bağışlasın. Lakin



«nümunəvi» keçirilmiş parlament seçkilərindən sc
arzu etmək belə mümkün deyil.

Hər şey onu göstərir ki, aparıcı dövlətlər Ermə
baycanın «şıltaqlıqlarına» bundan sonra da dözm
mırlar. Bu isə o deməkdir ki, sülh, çox güman ki,
Yeri gəlmişkən, Qarabağ münaqişəsinin nizamla
sülh sazişinin imzalanması bəzi xarici və daxili s
lara görə rəsmi Bakıya sərfəlidir, eləcə də Ağ ev
yasının mövqeyinə uyğundur. Vaşinqton tərəfində
nınma», yəni Ağ ev sahibi tərəfindən dövlət başç
dövlət səfərinə dəvət edilməsi Bakı üçün həyati ə
Sülh danışıqlarında irəliləyiş isə Azərbaycanda de
və insan hüquqlarının vəziyyətinə Ağ Ev sahibin
masına» imkan verər.

Bundan başqa, bu gün Vaşinqton Azərbaycan
seçkilərinin yekunları ilə bağlı tutduğu mövqeyə
hədəfinə çevrilmişdir. Ermənistan-Azərbaycan r
nizamlanmasına dair sülh sazişinin imzalanması i
nu müvəqqəti «bağlaya» bilər, çünki bu, sözsüz
nistrasiyasının xarici siyasətinin böyük uğuru kimi
riləcəkdir. Lakin bizim xarici işlər nazirinin çıxış
tanış olsaq, belə məlum olur ki, hazırki məqam
sülh yolu ilə nizamlanmasının Azərbaycan üçün
olan variantı müzakirə edilir, bu barədə bu səti
dəfələrlə yazmışdır. Azərbaycan olduqca dəqiq
cümlədən Dağlıq Qarabağın sosial-iqtisadi inki
edilməsi üzrə öhdəliklər götürməyə hazırdır, lakir
da, rəsmi Bakı Dağlıq Qarabağdakı situasiyaya təs
heç bir rıçaqlara malik olmayacaqdır. Əksinə, ind
lik əminliklə demək olar ki, bu zaman rəsmi Bakı
gər xarakterli sıxışdırmalarla bağlı Dağlıq Qarab
tükənmək bilməyən ittihamlarla qarşılaşacaqdır.

Amma istənilən halda gələcək sülh sazişinin a
rılmış olan əsas müddəalarının açıq və səmimi
başlamaq vaxtıdır. Axı cəmiyyəti baş vermiş fakt q
maq olmaz, üstəlik, artıq bu gün ehtimal etmək ol
zişinə münasibət birmənalı olmayacaqdır...

# Ümid ilğımı

**Suallara politoloq Leyla Əliyeva cavab verir**

Minsk Qrupunun həmsədrləri və bir çox analitiklər belə fikir söyləmişlər ki, qarşıdan gələn 2006-cı il Qarabağ münaqişəsinin nizamlanmasında dönüş ili olacaqdır. Siz bu nöqteyi-nəzəri paylaşırsınızmı? Belə böyük nikbinliyin səbəbi nədir?

Parlament seçkiləri ərəfəsində beynəlxalq təşkilatların nümayəndələrinin nitqlərində daim aşağıdakı tezis səslənirdi: 2005-ci il parlament seçkilərindən sonra İ. Əliyev Qarabağ probleminin həlli üzrə səylərini fəallaşdırmaq imkanı qazanacaqdır. Onlar haqlı çıxdılar. Həqiqətən parlament seçkiləri, habelə seçkilərin total saxtalaşdırılmasına qarşı cəmiyyətin çıxışlarının yatırılması sübut etdi ki, iqtidar cəmiyyətin istənilən müqavimətini yatıra bilər. Ermənistanda da eyni vəziyyətdir. R. Köçəryan hər şeydən əvvəl hərbi-sənaye kompleksinin təmsilçisidir. Demokratiyanı inkişaf etdirmək siyasətində o, İ. Əliyevdən uzağa getməyib.

Ermənistanda da iqtidara qarşı hər cür çıxışlar eyni dəqiqliklə yatırılır. Buna görə də Qarabağ məsələsinə dair qərar həm Ermənistanda, həm də Azərbaycanda ictimai rəy və cəmiyyətin iqtidara təzyiqi nəzərə alınmadan qəbul ediləcəkdir. Sadəcə, ermənilərin maraqları bir qədər çox nəzərə alınacaqdır, çünki status-kvo onların üstünlüyünü əks etdirir.

*«Realnıy Azerbaydjan» qəzeti, 30.12.05*



# Heç bir qətnamə torpaq q

*«Yeni Müsavat» qəz*

Son vaxtlar beynəlxalq səviyyədə Qarabağ prc
qətin artması müşahidə edilir. Hər halda, Avropa
ment Assambleyasının münaqişə ilə bağlı ayrıca q
etməsi və az sonra ATƏT-in xüsusi Faktaraşdırma
işə başlaması belə qənaətə gəlməyə əsas verir. Sü
tlərin Həlli Mərkəzinin direktoru, politoloq Elxa
söhbətimiz də əsasən bu məsələlərlə bağlıdır.

**- Elxan bəy, AŞPA-nın yekun qətnaməsini h
can, həm də Ermənistanın rəsmi strukturları
Sizcə, sənədin görünməyən tərəfləri nədir və
rəflərindən hansı üçün daha önəmli perspektiv**

- Avropa Şurası öz sənədində regiondakı hərb
tiyatlı ifadələrlə əks etdirməyə çalışıb. Yəni etnik
və ərazilərin 10 il ərzində işğal altında qalması də
dən qeyd olunub. Amma təşkilat vəziyyəti olduğ
